# Qəbələdə ‘’Hərbiyyə’’ yay düşərgəsi təşkil olunub






İyulun 20-də Qəbələdə “ASAN xidmət”, “ASAN Könüllüləri” Təşkilatı və Dövlət Sərhəd Xidmətinin birgə təşkilatçılığı ilə Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyinə həsr olunmuş “Hərbiyyə” hərbi-vətənpərvərlik düşərgəsinin açılış mərasimi keçirilib.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, Dövlət Sərhəd Xidmətinin rəisinin müavini, general-leytenant İlham Mehdiyev, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev və digər qonaqlar iştirak ediblər.

Mərasim iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Qəbələ şəhərindəki abidəsi önünə gül dəstələri qoyaraq ulu öndərin əziz xatirəsinə öz dərin ehtiramlarını bildiriblər.

Düşərgənin açılış mərasimində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev çıxış edərək qonaqları salamlayıb, “Hərbiyyə” hərbi-vətənpərvərlik düşərgənin keçirilməsi üçün Qəbələ rayonunu seçdiklərinə görə tədbirin təşkilatçılarına minnətdarlığını bildirib. RİH başçısı çıxışında qeyd edib ki, belə tədbirlər uşaqlara hər zaman vətənpərvərlik duyğuları aşılayır, onların ordu haqqında təsəvvürlərini formalaşdırır, gənclərimizdə torpağa, Vətənə sevgi hisslərini artırır.

Səbuhi Abdullayev ASAN könüllülərinin yay düşərgəsində olduqları müddətdə rayonumuzdakı muzeylərə, turizm-idman komplekslərinə, eləcə də digər tarixi məkanlara ekskursiyaların təşkil olunacağını qeyd edərək, Qəbələdə keçirdikləri günlərin onların təəsüratlarında silinməz izlər buraxacağını ifadə edib, düşərgənin bütün iştirakçılarına uğurlar arzulayıb.

Sonra mərasimdə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev və Dövlət Sərhəd Xidməti rəisinin müavini, general-leytenant İlham Mehdiyev çıxış edərək tədbirin mahiyyəti barədə məlumat veriblər. Qeyd olunub ki, “Hərbiyyə” hərbi-vətənpərvərlik düşərgəsi “ASAN Könüllüləri” Təşkilatı və Dövlət Sərhəd Xidmətinin hərbi simulyasiya formasında birgə təşkil etdiyi sayca ikinci yay düşərgəsidir.

Natiqlər bildiriblər ki, əsgər simulyasiya oyunu formasında qurulan düşərgə hərbi hissə və səhra şəraitində təşkil olunacaq və iştirakçılar bütün qida və gigiyenik vasitələrlə təmin ediləcək.

Otel və evdən fərqli məişət şəraitli düşərgədə 9 regiondan ümumilikdə 100 ASAN könüllüsü iştirak edib.

“Hərbiyyə” hərbi vətənpərvərlik düşərgəsinin iştirakçıları müxtəlif peşəkar hərbi təlimlərə cəlb olunub, taktiki hazırlıq, qarovul hazırlığı, atəş hazırlığı, topoqrafiya, komandir hazırlığı və digər hərbi hazırlıqlarda iştirak ediblər.

Düşərgədə ASAN könüllüləri eyni zamanda Azərbaycan generallarının həyatı və onların ordu quruculuğundakı xidmətləri, ordu quruculuğu siyasətinin təkmilləşdirilməsi, inkişaf etdirilməsi istiqamətində görülən işlərlə bağlı məlumatlandırılıblar.

**“Qəbələ”**

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 22 iyul Milli Mətbuat və Jurnalistika Günü münasibəti ilə “Qəbələ” qəzetinin əməkdaşlarına

## TƏBRİKİ

**Hörmətli “Qəbələ” qəzetinin kollektivi!**

Sizi peşə bayramınız–22 İyul Milli Mətbuat və Jurnalistika Günü münasibətilə təbrik edirəm.

Müstəqil Azərbaycanımızın inkişafı yolunda və ölkəmizin tərəqqisi naminə şərəfli fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar, şəxsi həyatınızda xoşbəxtlik arzulayıram.

**Səbuhi Abdullayev,**
**Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı.**

*Qəbələ şəhəri, 21 iyul 2018-ci il.*

## QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2018-ci İLİN AVQUST AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ GÖRÜŞ-QƏBULLARIN QRAFİKİ

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər, qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Cığatelli kəndi | 07.08.2018 | Kənd məktəbi, saat $11^{00}$ |
| Mirzəbəyli kəndi | 14.08.2018 | Kənd məktəbi, saat $11^{00}$ |
| Yemişanlı qəsəbəsi | 21.08.2018 | Kənd məktəbi, saat $11^{00}$ |
| Tikanlı kəndi | 28.08.2018 | Kənd məktəbi, saat $11^{00}$ |

Qəbula təhsil, səhiyyə müəssisələrinin, hüquq-mühafizə orqanlarının, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol-istismar, baytarlıq, qaz-istismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri dəvət olunurlar.

# Azərbaycan-Polşa dostluğu

***Azərbaycanla Polşa arasında müxtəlif sahələrdə əlaqələrin inkişafına töhfə vermiş tarixi şəxsiyyətlərin xatirəsinə dost ölkənin regionlarında və təhsil müəssisələrində 20 ədəd xatirə lövhəsi və barelyef qoyulmuş, abidə ucaldılmış, habelə 3 xatirə nişanı təsis edilmişdir. Polşa Respublikasının Qnezno şəhəri ilə Qəbələ rayonu arasında mövcud olan mədəni əlaqələrlə bağlı qeyd edilənlərin oxucularımız üçün maraqlı olacağını nəzərə alaraq həmin məlumatları dərc edirik.***



Azərbaycanla Polşa arasında müasir diplomatik əlaqələrin tarixi 26 illik dövrü əhatə etsə də, hər iki ölkə xalqları arasında əsrlərdən bəri davam edən dostluq və əməkdaşlıq ənənələri mövcuddur. Hələ 15-ci əsrdə Azərbaycan hökmdarı Uzun Həsənin Polşa kralı Yaqello ilə sıx təmasları olmuşdur. Sonrakı dövrlərdə də bu münasibətlər qorunub saxlanılmış, Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin həyatında polyaklar fəal iştirak etmişlər.

Çağdaş diplomatik münasibətlərin bərpasından ötən 26 il ərzində iki ölkə arasında əlaqələr inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

Bu əlaqələrin əyani təcəssümü olaraq Azərbaycan-Polşa arasında dostluq münasibətlərinin inkişafına töhfə vermiş şəxslərin xatirəsinə ölkənin regionlarında və təhsil müəssisələrində 20 ədəd xatirə lövhəsi və barelyef qoyulmuş, abidə ucaldılmış, habelə 3 xatirə nişanı təsis edilmişdir.

Polşanın qədim paytaxtı sayılan Qnezno şəhərində ucaldılan abidə də Azərbaycan-Polşa dostluğunu təcəssüm etdirən rəmzlərdəndir. “Dostluq” adlandırılan abidə iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 540, bərpasının isə 20 illiyinə həsr olunub. Abidə üz-üzə dayanmış palıd yarpağı formasındadır. İç tərəfdən üzərində Azərbaycanın və Polşanın xəritəsi əks olunub. Bürünc materialdan hazırlanmış yarpağın bir tərəfində ümummilli lider Heydər Əliyevin Polşa haqqında, digər tərəfdə isə Roma papası 2-ci İohann Pavelin Azərbaycan haqqında söylədiyi fikirlər yer alıb.

Polşanın Torun şəhərindəki liseydə isə Uzun Həsən və kral IV Kazimirə həsr edilmiş xatirə lövhəsi vardır.

Həmçinin ölkəmizin dost ölkədəki səfirliyi tərəfindən 2012-ci ildə Azərbaycan-Polşa diplomatik əlaqələrinin qurulmasının 540 və bərpasının 20 illiyinə həsr olunmuş xatirə nişanı təsis edilmişdir. Xatirə nişanının üzərində Bakının Qız

(Ardı 7-ci səhifədə).